

# Regionun inkişaf və tərəqqisi sülh sazişinin imzalanmasından keçir

***Azərbaycan bu gün dünyada ciddi narahatlıq doğuran hadisələr, kəskin, ziddiyyətli dəyişikliklər fonunda qlobal öhdəliklərə, əmin-amanlığa, humanizm dəyərlərinə sadiqliyini nümayiş etdirir, sülh və təhlükəsizliyin gerçəkləşdirilməsi istiqamətində çevik, konstruktiv siyasət yürüdür. Eyni zamanda, Ermənistanın ölkəmizə qarşı uzun illər ərzində apardığı təcavüzkar siyasət nəticəsində tamamilə dağıdılan, yerlə-yeksan edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq işlərini həyat keçirir.***

Azərbaycanın ötən müddətdə beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunan sülh gündəliyi, bu istiqamətdə təşəbbüsləri hazırda Cənubi Qafqazda regional inkişaf üçün yeni imkanlar yaradıb. Ermənistan isə ölkəmizin sülh müqaviləsinin imzalanması üçün təklif etdiyi 5 prinsiplə razılaşıb və belə bir hal işğalçı respublikanın Azərbaycanın sülh və əməkdaşlıq çağırışlarına müsbət cavab verməsini şərtləndirib. Ermənistan Azərbaycanın sülh təşəbbüsünə müsbət yanaşmaqdan başqa yolu qalmadığını, belə təqdirdə həm Cənubi Qafqazda sabitliyin uzunmüddətli və dayanıqlı olacağını, həm də xalqının düşdüyü sosial-iqtisadi böhrandan xilas ediləcəyini anlayıb.

Yeri gəlmişkən, xatırladaq ki, Azərbaycan hələ bu ilin fevral ayında Ermənistana sülh müqaviləsinin təməl prinsiplərini təqdim edib. Qarşı tərəf isə həmin baza prinsiplərində onlar üçün qəbulolunmaz heç nəyin olmadığını bildirib.

Prezident İlham Əliyev postmünaqişə dövründə Cənubi Qafqazın siyasi arxitekturasını şərh edərkən, gələcəkdə bütün istiqamətlər üzrə inteqrasiya və inkişafın, xüsusən də uzunmüddətli sülh və təhlükəsizliyin yaradılmasının vacibliyini dəfələrlə bildirib. Bunun üçün Azərbaycan təklifləri ilə çıxış edib və bu təkliflər Ermənistanın kapitulyasiyası hesab olunan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda da öz ifadəsini tapıb. İndiki mərhələdə də iki dövlət arasında münasibətlərin normallaşdırılması ilə bağlı gündəliyi dövlətimizin başçısı müəyyənləşdirib.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın yaratdığı yeni reallıqlarda, regionda münasibətlərin normallaşdırılması prosesində vasitəçiliklə bağlı missiyanın yaranması xüsusi önəm daşıyıb. Bu missiyanı Rusiya ilə bərabər, Avropa İttifaqının da üzərinə götürməsi böyük əhəmiyyət kəsb edib. Adıçəkilən beynəlxalq qurum regional əməkdaşlıq səylərində iştirak etməyi, dayanıqlı sülh və rifah naminə region ölkələri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsini qarşıya əsas vəzifə kimi qoyub. Bu məqamda xatırladaq ki, indiyədək bu prosesdə ikili standartlara, beynəlxalq hüququn tapdalanmasına yer verilməsi nəzərə çarpmayıb. Yeri gəlmişkən, Azərbaycanın yaratdığı reallıqlar nəticəsində Minsk qrupu da artıq tarixin arxivinə göndərilib.

Beləliklə, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə keçirilən sonuncu üçtərəfli görüşdə də əldə edilən razılıqlar, götürülən öhdəliklər reallaşacağı təqdirdə sülh sazişinin tezliklə imzalanmasını gözləmək olar. Çünki Şarl Mişelin ümidverici bəyanatı da göstərdi ki, beynəlxalq təşkilatlar tərəfindən də regionda sülhün daha tez bir zamanda bərqərar olunmasına böyük ümid bəslənilir.

Burada bir məqamı da vurğulayaq ki, bu gün bölgədə sülhün, əmin-amanlığın hökm sürməsi Azərbaycan və Ermənistan üçün önəmli olmaqla bərabər, bütün dünyanın da xeyrinədir. Çünki dünya güclərinə, eləcə də nüfuzlu beynəlxalq qurumlara bəllidir ki, Cənubi Qafqaz ölkələri arasında əlaqələrin inkişafı, kommunikasiyaların açılması, regionun tərəqqisi, təhlükəsizliyi münasibətlərin normallaşdırılmasından keçir. Ermənistanın sülh sazişi bağlamayacağı təqdirdə baş verə biləcək olaylar isə hər kəsə bəllidir.

Dövlətimizin başçısı çıxışlarının birində vurğuladığı kimi, əgər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanarsa və təməl prinsiplər həyata keçirilərsə, onda Cənubi Qafqazda əmin-amanlıq uzunmüddətli və dayanıqlı olacaq. Azərbaycanın elan etdiyi prinsiplər bu bölgənin inkişafını gerçəkləşdirəcək: "Biz Qafqazda sülh gündəliyini təşviq edirik. Hesab edirəm ki, bütün istiqamətlərdə təşəbbüs bizim əlimizdədir. Həmin təşəbbüs sülhə xidmət edir və etməlidir".

Azərbaycan Prezidenti çıxışlarında bu prosesdə Avropa İttifaqının ədalətli vasitəçi ola biləcəyini daim diqqətə çatdırıb. Ölkə rəhbəri Vətən savaşından sonra baş verənlərin bunu açıq nümayiş etdirdiyini vurğulayıb.

Hazırda Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri ölkəmizin İkinci Qarabağ müharibəsində parlaq qələbəsi nəticəsində işğaldan azad edilən ərazilərin respublikanın ümumi iqtisadiyyatına reinteqrasiyasına, yeni beynəlxalq və regional nəqliyyat–logistika dəhlizlərinin imkanlarından faydalanmasına nail olmaqdır. Bu isə yaxın gələcəkdə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasını, eləcə də Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın bölgə iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşdirilməsini reallaşdırmaq deməkdir.

Bütün bunlar Azərbaycanın nə qədər sülhsevər bir ölkə olduğunu bir daha dünyaya nümayiş etdirir. Beləliklə, Azərbaycan bölgədə davamlı sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Respublikamız hazırda da bu istiqamətdə real addımlar atır və bölgənin yeni əməkdaşlıq formatının yaradılması məqsədilə infrastruktur layihələrinin icrasını sürətləndirir.

Bütün dünya Prezident İlham Əliyevi sözünə, vədinə sadiq lider kimi tanıyır. Dövlətimizin başçısının qətiyyətini Ermənistan da yaxşı dərk edir. Ona görə də işğalçı ölkə sülh sazişinin imzalanmayacağı təqdirdə Azərbaycanın da Ermənistanın müstəqilliyini tanımayacağını dərindən dərk edir. Bu, Prezident İlham Əliyevin məğlub ölkəyə ünvanlanan sonuncu mesajlarının birində də diqqət çəkir: "Əgər Ermənistan təklif edilən 5 prinsip əsasında müzakirələrin keçirilməsini qəbul etməsə, onda Ermənistanın müstəqilliyini tanımadığımızı rəsmən elan edəcəyik. Ermənistan bunun nələrə gətirib çıxaracağını yaxşı başa düşməlidir. Bu, bəlkə də, Ermənistanın son şansıdır!".

Azərbaycanın regionda yaratdığı reallıqlar qlobal miqyasda qəbul olunduğundan, ölkəmizin suveren hüquqlarına hörmət bəslənildiyindən, həmçinin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması, davamlı sülhün əldə olunması prosesinə mövcud gerçəkliklər çərçivəsindən yanaşıldığından xəbər verir.

Burada diqqətçəkən bir məqam da odur ki, İkinci Qarabağ müharibəsindən sonra regionda yaranan reallığı dəyərləndirən nüfuzlu beynəlxalq qurumların, məsələn, Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksələn xətlə inkişaf edir. Qurum dövlətimizin başçısı İlham Əliyevin regional liderliyinə müsbət yanaşır və ölkə rəhbəri ilə yaxın təmaslarını getdikcə gücləndirməklə Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olunmasına ciddi səy göstərir. Bu il aprelin 6-da yaranan yeni format–"Brüssel sülh gündəliyi" də bunun parlaq ifadəsidir. Xatırladaq ki, Brüsseldə keçirilən üçtərəfli görüşün nəticəsi olaraq Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi və bununla əlaqədar işçi qrupun yaradılması da xüsusi diqqət çəkir.

Sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Eyni zamanda, sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyünün qorunmasıdır. Artıq tərəflərin bir-birinin ərazi bütövlüyünü tanımaq və dəstəkləmək istəkləri aydın nəzərə çarpır. Bir sözlə, Azərbaycanın təkmil sülh təklifində də bu məsələ daha çox diqqət çəkir.

Yeri gəlmişkən, Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyanın Vladivostok şəhərində keçirilən Şərq İqtisadi Forumunda rəsmi Yerevan ilə Bakı arasında Qarabağa dair intensiv danışıqlar getdiyini bildirib. O həm Ermənistanın strateji müttəfiqi, həm də Azərbaycanın çox yaxın tərəfdaşı kimi Rusiyanın bu məsələdə dəstəyinə ümid bəslədiyini deyib. Baş nazir Ermənistanın Azərbaycanla sərhədlərin açılmasında maraqlı olduğunu da vurğulayıb.

N.Paşinyan ölkəsinin Türkiyə ilə də münasibətlər qurmasında Rusiyanın dəstəyinə ümid bəslədiyini qeyd edib. O, Türkiyə ilə danışıqların artıq başlandığını xatırladıb.

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbirinə verdiyi müsahibədə bu barədə ətraflı fikirlər bildirib. Dövlətimizin başçısı regionda yaşanan dinamikanın təhlilini apararaq, bölgədə vəziyyətin sülhə doğru inkişaf etdiyini, bundan sonra da belə olacağına böyük ümid bəslədiyini vurğulayıb. Ölkə rəhbəri deyib: "Mən İtaliyaya Brüsseldən gəldim. Orada mənim, Avropa İttifaqı Şurasının prezidenti və Ermənistanın baş naziri arasında üçtərəfli görüşümüz oldu. Biz razılığa gəldik ki, bir ay müddətində Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh sazişi ilə bağlı praktiki danışıqlara başlamaq məqsədilə görüşəcəklər. Bu, bizim İkinci Qarabağ müharibəsinin bitməsindən dərhal sonra irəli sürdüyümüz təklif idi. Biz bildirdik ki, bizim sülhə, sülh sazişinə ehtiyacımız var. Bununla razılaşmaq üçün Ermənistana təqribən iki il lazım oldu. Zənnimcə, bu, görüşün ən mühüm nəticələrindən idi…".

Prezident İlham Əliyev müsahibədə, eyni zamanda, regiondakı vəziyyətin indi aparılan sülh danışıqlarının gedişatından asılı olacağını qeyd edərək, bu prosesin, yəni sülh sazişinin yekunlaşdırılıb imzalanması ilə bölgədə əmin-amanlığa, sabitliyə yol açılacağını diqqətə çatdırıb. Ölkə rəhbəri həmçinin bu məsələdə Ermənistan tərəfinin eyni iradə nümayiş etdirməsinin əsas rol oynayacağını da diqqətə çatdırıb.

Beləliklə, Vətən savaşındakı hərbi-siyasi qələbədən sonra Azərbaycan həm də bölgədəki statusunu getdikcə möhkəmləndirir, qalib ölkə kimi tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təklifləri verir, ən başlıcası isə bölgədə sülhün, əmin-amanlığın bərpası istiqamətində davamlı təşəbbüslər irəli sürür.

Bu fikrin təsdiqi kimi, bir məqama diqqət yetirək. Belə ki, vaxtilə ATƏT-in Minsk qrupu həmsədrlərinin ilk bəyanatlarından onların bölgədəki mövcud reallıqlardan tamamilə uzaq olmaları açıq-aydın görünürdü. İkinci Qarabağ müharibəsindən sonra isə əks mövqe nəzərə çarpmağa başladı. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: "Biz öz konstitusion hüquqlarımız çərçivəsində, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yeni reallıq yaratmışıq və hamı bu reallıqla hesablaşmalıdır. Bu, asan məsələ deyildi… Bu, daimi iş idi. Nəticədə bu gün beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB tərəfindən bu reallıq tamamilə qəbul edilib. Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük. Üstəlik, mən beynəlxalq strukturların çoxsaylı rəhbərləri və dövlət başçıları ilə əlaqədə olarkən müşahidə edirəm, indi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük".

Bu haqlı mövqe, reallıq təsadüfi deyil. Azərbaycan İkinci Qarabağ müharibəsindən əvvəl olduğu kimi, döyüşlər getdiyi vaxtda da öz konstitusion hüquqları, həmçinin BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində mübarizə aparıb, öz əbədi-əzəli torpağı uğrunda işğalçıya qarşı vuruşub və yeni reallıq yaradıb. Bu, faktdır və bu həqiqət, necə deyərlər, dünyanın gözü qarşısında baş verib. Bir az əvvəl xatırlatdığımız kimi, beynəlxalq ictimaiyyət, dünya gücləri, eləcə də nüfuzlu beynəlxalq təşkilatlar artıq bu reallıqla hesablaşıblar. Bu, bir tərəfdən, Azərbaycanın Vətən müharibəsindəki haqlı mövqeyinin, ədalətli qələbəsinin, digər tərəfdən isə Azərbaycan Prezidentinin yürütdüyü praqmatik xarici siyasətin məntiqi nəticəsidir.

Beləliklə, Vətən müharibəsindən sonra bölgədə yaranan yeni reallıqlardan irəli gələn sülh çağırışlarına sadiq qalan Azərbaycan Prezidenti İlham Əliyev bu gün təkcə sözdə deyil, əməldə də Cənubi Qafqazın lideri kimi çıxış edir və Azərbaycanla yanaşı, bütün bölgə xalqlarının dinc birgəyaşayışına töhfəsini verməyə çalışır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***